**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NİGAR NAZİM QIZI HÜSEYNOVA**

# EL ŞAİRİ MİSKİNLİ VƏLİNİN POETİK İRSİ

**5719.01 – Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun «Aşıq yaradıcılığı» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Cəlal Əbil oğlu Qasımov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Qəzənfər Məhəmməd oğlu Paşayev**
filologiya üzrə elmlər doktoru, professor

**Seyfəddin Həmzə oğlu Qəniyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə**: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası

Müdafiə «_27___»__06______2013-ci ildə saat _____ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdindəki FD.01.201 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan**:Az1001, Bakı, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» _________2013-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalqının mənəvi mədəniyyətinin milli mədəni inkişafımızda xüsusi rolu ilə seçilən xalq yaradıcılığı sahələrindən biri olan aşıq sənətinin müxtəlif aspektlərdən öyrənilməsi folklorşünaslıq elminin aktual problemlərindən biridir. Aşıq yaradıcılığı özündə milli-mədəni dəyərləri ehtiva edən zəngin və Azərbaycan xalqı üçün səciyyəvi mədəniyyət hadisəsidir.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və səyləri sayəsində YUNESKO-nun dünyanın qorunan qeyri-maddi mədəniyyət abidələri siyahısına aşıq sənətinin də daxil edilməsi bu sənətin tədqiqi tarixində yeni bir mərhələnin başlanması deməkdir. Bu sənətin mötəbər beynəlxalq mədəniyyət təşkilatında dünyanın nadir sənət inciləri sırasına daxil edilməsi aşıq yaradıcılığını folklorşünaslığın prioritet sahələrindən birinə çevirir.

Azərbaycan mədəniyyətinin, o sıradan folklorunun tədqiqində Mehriban xanım Əliyeva ilə başlanan yeni mərhələnin reallığı ayrı-ayrı aşıqların yaradıcılıq irsini, mühitləri və onların sənət ənənələrini, eyni zamanda müasir vəziyyətini daha ətraflı və daha dolğun öyrənməyə imkan verir.

Aşıq sənəti ənənəyə əsaslanan yaradıcılıqdır. Özündən öncəki dil, fikir, sənət və bunları özündə birləşdirən böyük bir mədəniyyətin yaşadıcısıdır. Bu sənətdə xalq fəlsəfəsi, təsəvvüf ideyaları və simvolikası, şeir sənəti, musiqi və ifaçılıq məharəti kimi məsələlər də geniş yer tutur və ənənəvi olaraq davam edir.

Aşıq sənəti böyük bir əxlaq və tərbiyə məktəbidir. Əsasında orta əsrlərin ürfan təlimi dayanan aşıq yaradıcılığının əsas və aparıcı ideyası insanın mənəvi kamilləşməsidir. Bu sənət insanı böyük kamilləşmə yoluna aparır, haqq yolunda yüksəlişinə təkan verir. Burada böyük humanist ideyalar – halallıq, doğruluq, yaxşılıq, xeyirxahlıq və s. kimi mənəvi dəyərlər yüksək bədii sənət dili ilə ifadə olunur və mükəmməl estetik təqdimatla cəmiyyətə çatdırılır.

El-aşıq yaradıcılığı həm də dünyanın poetik dərkinin ifadə formasıdır. Burada gerçəklik, dünya və insan, insan və cəmiyyət münasibətləri, mənəviyyat və insanın mənəvi dünyasının problemləri yenidən və sənət səviyyəsində dəyərləndirilir, cəmiyyətin yenidən mənəvi təşkil olunmasına yardım edir. Bu mənada aşıq yaradıcılığının öyrənilməsi həm də ciddi filoloji

problemdir və mükəmməl şeir və dastanla dolu xalq sənətinin çox zəngin bir sahəsinin gerçək elmi mənzərəsini yaratmaq deməkdir.

El-aşıq yaradıcılığı özündə yüksək bəşəri ideyalar daşıyan təbiəti və xarakteri etibarilə mill-mənəvi hadisədir. Ona görə də bu sənətə sovet dövründə lazım olduğu qədər diqqət göstərilməmiş və bir sıra böyük sənətkarların yaradıcılığı tədqiqat predmetindən kənarda qalmışdır. Mühiti və zəngin yaradıcılıq irsi indiyə qədər az öyrənilən XX əsrin ustad sənətkarlarından biri də Miskinli Vəlidir.

Miskinli Vəli Azərbaycan xalq şeirinin bir əsrdən artıq ömür sürmüş görkəmli nümayəndəsidir. Bütün həyatı yaradıcılığa həsr olunmuş və özündən sonra zəngin bir sənət irsi qoyub getmişdir. Onun poeziyasının növ, janr, mövzu və sair poetik xüsusiyyətlərinin çağdaş elmi-nəzəri tələblər səviyyəsində, sistemli şəkildə araşdırılması folklorşünaslıq elmi üçün zəruri və aktual problemdir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın tədqiqat obyekti el şairi Miskinli Vəlinin yaradıcılığıdır. Buraya sənətkarın müxtəlif kitab, toplu, jurnal və qəzetlərdə nəşr olunmuş şeirləri ilə yanaşı nəşr olunmamış şeirləri də daxildir. Tədqiqatın predmetini Miskinli Vəlinin həyatı, sənət yolu, poeziyasının forma və məzmun xüsusiyyətləri, şeirlərinin mövzu əhatəsi və digər bədii sənətkarlıq məsələləri təşkil edir.

**Araşdırmanın məqsəd və vəzifələri**. İşin əsas məqsədi Miskinli Vəlinin yaradıcılığının səciyyəvi cəhətlərini müəyyənləşdirməklə mühit və zaman üçün əsas aparıcı istiqamət təşkil edən ideya-estetik və bədii-poetik məzmunu aşkarlamaq və onların filoloji dəyərini üzə çıxarmaqdır. Tədqiqat işi bundan ötrü qarşısına aşağıdakı vəzifələri qoyur:

- Sənətkarın yaradıcılıq irsi və sənətkar şəxsiyyəti haqqında məlumatları təhlil etməklə aşığın sənətkar statusunu müəyyənləşdirmək;
- El şairinin sənət irsi haqqında elmi təsəvvür yaratmaq;
- Sənətkarın poeziyasının mövzu əhatəsini və janr səciyyəsini müəyyənləşdirmək;
- Aşığın söz və musiqi repertuarı, şairliyi və sənətkarlığının səciyyəvi cəhətlərini müəyyənləşdirməklə mühitinin regional özəllikləri və Azərbaycan aşıq poeziyası haqqında elmi təsəvvürləri genişləndirmək və s.

**Mövzunun öyrənilmə dərəcəsi**. Miskinli Vəlinin həyatı, mühiti, poetik yaradıcılığı və sənəti indiyə qədər monoqrafik tədqiqatın mövzusu olmasa da, sənətkarın yaradıcılığı zaman-zaman müxtəlif məqalələrin mövzusu olmuşdur. Ayrı-ayrı tədqiqatçılar, aşıqsevərlər, ziyalılar Miskili

Vəlinin bu və ya digər şeirləri, sənəti haqqında məlumatlar vermiş, xüsusilə yubiley ərəfələrində onu geniş ictimaiyyətə dərindən tanıtmaq istəmişlər. Həmin yazılar sənətkarın poetik irsinin tədqiqi sahəsində müəyyən addımlar olsa da, onun poetik yaradıcılığı və sənəti bütövlükdə tədqiq olunmamışdır. Bu da öz növbəsində Miskinli Vəlinin sənət və yaradıcılığının akademik standartlar səviyyəsində öyrənilməsini aktual elmi problem kimi saxlamışdır.

**İşin nəzəri-metodoloji əsasları.** Tədqiqat təsviri və tarixi-müqayisəli metod əsasında işlənmişdir. İş hazırlanarkən müasir folklorşünaslığın elmi-nəzəri müddəalarına və Azərbaycan filologiyasının aşıq sənətinə dair əldə olunmuş elmi nailiyyətlərinə əsaslanılmışdır.

**Tədqiqatın elmi yenilikləri.** İşin əsas elmi yeniliyi mövzunun monoqrafik orijinallığı ilə şərtlənir. Belə ki, Aşıq Miskinli Vəlinin yaradıcılığı Azərbaycan folklorşünaslığında ilk dəfə bu tədqiqat əsərində monoqrafik tədqiqatın mövzusu olur. Sənətkarın həyat və yaradıcılığının ilk dəfə geniş planda təhlili əldə olunmuş nəticələrin orijinallığını və yeniliyini müəyyənləşdirir. Təhlildən əldə edilən bu yenilikləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Aşıqlıq fəaliyyəti və ədəbi irsi əsasında sənətkarın mənsub olduğu aşıq mühitindəki yeri və rolu müəyyənləşdirilmişdir.
- Aşığın yaradıcılığının sənətkarlıq özəllikləri aydınlaşdırılmışdır.
- Aşığın epik və lirik yaradıcılığının mövzu əhatəsi və janr səciyyəsi müəyyənləşdirilmişdir.
- Miskinli Vəlinin zəngin yaradıcılığının nümunəsində Azərbaycan aşıq sənətinin özünəməxsusluğu və xarakterik xüsusiyyətləri üzə çıxarılaraq şərh olunmuşdur.
- Aşığın yaradıcılığının dini, əxlaqi dəyərləri, dövlətçilik və vətəndaşlıq şüurunu gücləndirən ədəbi-estetik və sosial-mədəni mahiyyəti, sənət özəllikləri aşkarlanmışdır və s.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Bu tədqiqatdan folklorşünaslığın aşıq yaradıcılığı ilə bağlı nəzəri problemlərinin həlli üçün ali məktəblərin folklor dərsliklərində, orta məktəblərin ədəbiyyat dərsliklərinin aşıq sənəti ilə bağlı bölmələrinin hazırlanmasında istifadə etmək olar.

**İşin praktiki əhəmiyyəti** ondan ali məktəblərin filologiya fakültələrində aşıq sənətinə dair xüsusi kursların tədrisi zamanı elmi vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

**Tədqiqatın aprobasiyası.** Təqdim olunan dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunda işlənib hazırlanmışdır.

Tədqiqatın nəticələri müəllifin konfrans və seminarlardakı məruzələrində, Azərbaycanda və xaricdə müxtəlif elmi məcmuələrdə çap olunmuş məqalələrində öz əksini tapmışdır.

**İşin quruluşu.** Tədqiqat giriş, üç fəsil, əldə edilmiş başlıca elmi qənaət və mülahizələri ümumiləşdirən nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## ARAŞDIRMANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın üç yarımfəsildən ibarət olan birinci fəsli «Miskinli Vəlinin həyatı, mühiti və yaradıcılıq yolu» adlanır. Burada el şairi, aşıq Miskinli Vəlinin həyatı, sənət yolu tədqiq olunmuş, sənətkarın yaradıcılığı və poetik irsinin tədqiq tarixi geniş şəkildə öyrənilmiş, aşığın yaradıcı fəaliyyəti mənsub olduğu folklor mühiti və sənətkar münasibətləri baxımından tədqiq olunmuşdur.

Birinci fəslin birinci yarımfəsli «Aşığın həyatı və sənət yolu» adlanır. Burada aparılmış tədqiqat göstərmişdir ki, Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri də Miskinli Vəlidir. Miskinli Vəli XIX əsrin sonlarından XX əsrin sonlarınadək bir əsrdən artıq ömür yaşamış bir şəxsiyyətdir. Miskin Vəli (Vəli Alı oğlu Bayramov) 1894-cü ildə Böyük Qarabulaq kəndində doğulmuş, 1995-ci ildə (22 dekabrda), 101 yaşında həmin kənddə vəfat etmişdir[1]. Miskin Vəli doqquz yaşında ikən muzdurluğa başlamış, sonralar bir müddət çobanlıq etmişdir. 19-20 yaşlarında aşıqlığa başlamışdır. Onun ustadı olmayıb. Saz çalmağı, məclis aparmağı və ümumiyyətlə, aşıqlıq sənətinin sirlərini müstəqil öyrənib. Əlbəttə, bu işdə çox iti yaddaşı onun köməyinə gəlmişdir. Aşıq Vəli təhsil almadığından yazıb-oxumağı bacarmasa da, güclü hafizəsinin köməyi ilə Azərbaycan el ədəbiyyatından saysız-hesabsız şeirləri, dastanları və s. folklor nümunələrini yadda saxlamışdır[2].Vəlinin aşıq sənətinə olan məhəbbəti onu tezliklə Gədəbəy və Şəmkirdə tanıdıb və 1930-cu ildən sonra tanınmış aşıq və hazırcavab bir şair kimi məclislər keçirib… Onun hazırcavablığı, gözəl və bədii cəhətdən kamil şeir söyləməsi aşıqlar arasında ona böyük hörmət və ehtiram qazandırmışdır… Vəli aşıq şeirinin bir çox şəkillərindən istifadə

---

[1] Babayev Y. Miskinli Şair Vəli // «Körpü» qəz., 8 noyabr 1991

[2] Babayev Y. Sazın səsindən sözün sehrinə / İki ustad. Bakı: Azərnəşr, 1996, s. 3

etmişdir. O, həm də ustadnamə müəllifi kimi tanınmışdır[3] ". Savadının az olmasına baxmayaraq, Aşıq Vəli Vaqifin, Dilqəmin, Xəyyat Mirzənin, Aşıq Ələsgərin və digər görkəmli ustad aşıqların qoşmalarını, eləcə də otuza qədər xalq dastanını öyrənir ki, bütün bunlar onun şeir yaratmaq qabiliyyətinin artmasına müsbət təsir göstərir. İnqilabdan əvvəl saysız-hesabsız şeirlər deyən Vəli sonra da yeni həyatı, sosializm quruculuğunu tərənnüm edən əsərlər yaratmışdır. Onun təqribən 20 min misradan çox şeiri vardır. Vəli ustad aşıq kimi tanınır. Bir neçə dəfə respublika xalq yaradıcılığı evi tərəfindən mükafata layiq görülmüşdür[4].

Aşığın doğum tarixi ilə bağlı qeyri-dəqiqliklərə yol verilmişdir. Bəzi nəşrlərdə bu tarix 1890, 1892, yaxud 1894-cü il kimi göstərilmişdir. Lakin aşıq özü şeirlərində 1894-cü ildə anadan olduğunu göstərmişdir:

Min səkkiz yüz doxsan dördəm,
Yetmiş səkkiz yaşım mənim.
Bu müddətdə, məsafədə
Nələr çəkmiş başım mənim.

Digər məlumatlara görə, Vəli əvvəlcə Şamxor rayonunun Dəllər kəndindən olan Aşıq Abbasın, sonra isə Basarkeçər rayonundan Qarabulağa köçən Aşıq Şəmistanın yanında şəyirdlik edir. Görkəmli el sənətkarı təhsil görməyib, heç bir yazı-pozu oxuya bilmir, aldığı məktubdan başqalarına oxutdururdu. Lakin o, iti hafizəsi və möhkəm yaddaşı ilə 15-ə qədər irihəcmli, 30-a qədər kiçikhəcmli dastanı sinədəftər eləmişdir. 500-dən çox qoşması, gəraylısı, müxəmməsi, divanisi, təcnisi, cığalı təcnisi, dodaqdəyməz təcnisi, hərfüstü təcnisi, həmçinin şair Cavadla, Aşıq Şəmkirlə, Aşıq Teymurla, Aşıq Murad və Aşıq Məmmədəli kimi sənətkarlarla deyişmələri var. Bütün bunların hamısını o, əzbərdən yadında saxlayıb. Miskinli Vəli I və II aşıqlar qurultayında iştirak etmiş, Bozalqanlı, Aşıq Hüseyn, Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam kimi sənətkarlarla görüşmüş, tanış olmuş, Azərbaycanın, Ermənistanın, Gürcüstanın kəndlərini gəzərək 60 il toy və şənliklərdə dövran keçirmişdir[5].

---

[3] Namazov Q. Aşıqlar. I kitab. Bakı: Səda, 2004, s. 414

[4] Azərbaycan aşıqları və el şairləri. 2 clddə, II c. / Tərtib edəni Ə.Axundov. Bakı: Elm, 1984, s. 321

[5] Əcayib Q. Sinni əsrə bərabər // "Azərbaycan gəncləri" qəz., 24 yanvar 1991

Birinci fəslin ikinci yarımfəsli «Sənətkarın yaradıcılıq yolu və poetik irsi tədqiqatlarda» adlanır. Burada göstərilir ki, bir əsr ömür sürmüş, yarım əsr aşıqlıq etmiş, saz çalmış, məclis aparmış, səksən il şeir qoşmuş, söz söyləmiş bu sənətkarın şəxsiyyəti və sənəti, yaradıcılıq irsi ayrıca bir tədqiqatın mövzusu olmamışdır. Amma, aşığın irsinin toplanmasında müəyyən təşəbbüslər olmuşdur. Bu irs, ilk növbədə, bölgə aşıqlarının yaşayan sənət ənənəsində davam etdirilməkdədir və müasir Gədəbəy aşıqlarının söz repertuarında Miskinli Vəlinin irsindən də nümunələr vardır. Bu nümunələr zaman-zaman ayrı-ayrı ziyalılar tərəfindən yazıya alınmış, ağızdan kağıza köçürülmüş, müxtəlif qəzet və jurnallarda çap olunmuşdur. Belə müstəqil və həvəskar təşəbbüslərlə yanaşı, aşığın irsinin toplanmasında peşəkar yanaşmalar da müşahidə olunmaqdadır.

Miskinli Vəlinin poetik irsi ilə bağlı Y.Babayev, M.Allahmanov, F.Ramazanoğlu, Q.Əcayib, E.Əliyev, N.Qasımov və başqaları məqalələr nəşr etdirmiş və aşığın həyatı və yaradıcılığı haqqında məlumat vermişdir. Bu məqalələr daha çox aşığı və onun irsinin zənginliyini tanıtmaq məqsədi daşıyır.

Miskinli Vəlinin yaradıcılığı haqqında ilk məlumatlar Hümmət Əlizadənin «Azərbaycan aşıqları» kitabında verilmişdir. Bu kitabda aşığın tərcümeyi halı və şeirlərindən örnək verilmişdir. Burada aşığın adı "Şair Vəli" kimi təqdim olunmuşdur[6]. Bundan sonra 1935-ci ildə yenə də H.Əlizadənin nəşr etdirdiyi "Aşıqlar" kitabında Miskinli Vəlinin yaradıcılığından nümunələr verilmişdir. İki cildlik bu kitabın birinci cildində şeirləri verilmiş 16 aşıqdan biri Şair Vəlidir. 1934, 1935 və 1937-ci illərdə H.Əlizadənin təkrar çap etdirdiyi "Aşıq Ələsgər" kitabında da Şair Vəlinin adına rast gəlirik. Kitabın "Deyişmələr" bölməsində Ələsgərin 3 deyişməsi (Aşıq Hüseyn, Şair Vəli və Həcərlə) verilmişdir. Bundan başqa, həmin kitabda "Ələsgərə bənzətmələr" bölməsində Şair Vəlinin 2 şeiri verilmişdir[7]. Eyni zamanda, "Azərbaycan aşıqları və el şairləri" ikicildliyində də Miskinli Vəlinin sənət irsindən örnəklər verilmişdir[8].

Tədqiqatçılar Y.Babayev və İ.Sadıq aşığın şeirlərini toplayıb tərtib etmiş, Növrəs İmanın şeirləri ilə birlikdə, "İki ustad" adı ilə 1996-cı ildə

---

[6] Azərbaycan aşıqları / Toplayanı H. Əlizadə. I c. Bakı: Azərnəşr, 1929

[7] Aşıq Ələsgər / Toplayanı H.Əlizadə. Bakı: Azərnəşr, 1934, 241 s.

[8] Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, II c. / Tərtib edəni Ə.Axundov. Bakı: Elm, 1984, s. 322-332

“Azərnəşr”də çap etdirmişlər[9]. Hesab edirik ki, həmin nəşr həm kəmiyyət, həm də keyfiyyət göstəricisi baxımından ustad aşığın irsinin toplandığı ən mükəmməl nəşrdir.

Bütün bunlarla yanaşı, əsasən, müstəqillik dövründə çıxan mətbuat orqanlarında Miskinli Vəli haqqında məlumat xarakterli yazılar da nəşr olunmuş və aşığın şeirlərindən örnəklər verilmişdir.

Birinci fəslin üçüncü yarımfəsli «Mühit və sənətkar münasibətləri» adlanır. Burada göstərilir ki, Miskinli Vəli bütün istedadı, sənətkarlıq bacarığı ilə birlikdə onun mənsub olduğu sənət və yaradıcılıq mühitinin yetişdirməsidir. Gədəbəy bölgəsində doğulan və bütün ömrünü burada keçirmiş sənətkar bu mühitin bağrından qopmuşdur. Onun bir səntkar kimi irsinin mayası, şəhdi-şirəsi, poetik özünəməxsusluğu Gədəbəy bölgəsinin aşıq mühiti ilə birbaşa və həm də ayrılmaz tellərlə bağlıdır.

Aşıq sənətinin vurğunu olan Miskinli Vəli saza-sözə diqqət vermiş, məclislərdə aşıqlıq edən başqa sənətkarların yaradıcılığını izləmişdir. Miskinli Vəlinin fenomenal yaddaşı, dərin müşahidə qabiliyyəti ona aşıq sənətinin incəliklərini öyrənməyə imkan vermişdir. Öz yaddaşına, söz demək bacarığına güvənən və arxayın olan Vəli özünü məxtəlif məclislərdə sınamışdır.

O, təbii olaraq, öz dövrünün siyasi-ictimai ovqatından qıraqda qala bilməmişdir. Keçən əsrin otuzuncu illərində sənət meydanına atılan Miskinli Vəlinin yaradıcılığına öz dövrünün siyasi-ictimai ovqatı, heç şübhəsiz, təsirsiz ötüşməmişdir.

Dərin məzmunlu şeirləri, gözəl ifaçılıq qabiliyyəti ilə bütün Azərbaycanda şöhrətlənən sənətkar böyük səhnələrdə saz-söz «imtahanı» vermiş və bütün sınaqlardan uğurla çıxmışdır ki, bu da Misinli Vəlini xalq arasında daha da məşhurlaşdırmışdır.

Miskinli Vəlinin poetik yaradıcılığı xalq şeiri üslubundadır. Bu da əslində, görkəmli şair Səməd Vurğunun ona olan marağının əsasında durur. O, öz dövrünün Aşıq Şəmşir, Miskinli Vəli kimi sənətkarları ilə yaxından əlaqə saxlamışdır. Miskinli Vəli xatırlayır ki, «Bir dəfə S.Vurğun kitab

---

[9] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, 192 səh.

çıxartdırmamağımın səbəbini soruşdu. Çətinlik çəkdiyimi dedim. O, isə məsləhət gördü ki, şerlərimi yazıb gətirim[10].

Şair İlyas Tapdığın göstərdiyi kimi, Şair Vəli aşıq şeirini qulaq yaddaşı ilə mənimsəmişdir. Ustad sənətkarların zəngin irsini çox gözəl bilir. Həm də saz şairi kim zəngin yaradıcılıq yolu keçmişdir. 70 ildir şeirlər söyləyir. Gədəbəy, Şəmkir, Tovuz, Qazax camaatı, Göyçə, Borçalı tərəfin adamları şair Vəlinin bir çox şeirlərini əzbər bilirlər[11].

Sənətkar kimliyi sırf aşıq mühitində təşəkkül tapan Miskinli Vəlinin həqiqət axtarışları onun yaradıcılığına yazılı ədəbiyyatın da təsirini şərtləndirmişdir. O, həm aşıq yaradıcılığına, həm klassik poeziyaya, həm də müasir əldəbiyyata qarşı həssas olmuş, bu qaynaqlardan gələn mütərəqqi ideya və obrazlar Miskinli Vəlinin yaradıcılığını inkişaf edib daha da zənginləşdirmişdir.

Dissertasiyanın dörd yarımfəsildən ibarət olan ikinci fəsli «Miskinli Vəli poeziyasının ideya-estetik qaynaqları, bədii məzmun və forma xüsusiyyətləri» adlanır. Burada Miskinli Vəlinin yaradıcılığının ideya-estetik qaynaqları, sənət və poeziya münasibətləri, şeirlərin forma gözəlliyi və mövzu əhatəsi kimi məsələlər tədqiq olunmuşdur.

İkinci fəslin birinci yarımfəsli «Sənətkarın yaradıcılığının ideya-estetik qaynaqları» adlanır. Burada göstərilir ki, Miskinli Vəlinin yaradıcılığı genetik-tipoloji kökləri ilə aşıq sənətinin, saz-söz yaradıcılığının çox dərin qatları ilə əlaqədardır. Belə ki, aşıq sənətinin ideya-estetik spesifikası Miskinli Vəli yaradıcılığında təsəvvüfi-irfani simvollarda təzahür edir. Onun poeziyasında təzahür edən aşiqanə müdriklik aşıq poeziyasının özünəməxsus fəlsəfəsi olub, birbaşa «aşiqlikdən aşıqlığa» gedən yolun fəlsəfəsindən su içmişdir. Bu cəhətdən Miskinli Vəlinin söz yaradıcılığı möhkəm ideya-estetik əsaslara malikdir. Həmin əsaslar aşıq yaradıcılığının tarixi ilə müəyyənləşən poetik ənənələri əks etdirir.

Miskinli Vəli poeziyasında tərənnüm olunan bütün mənəvi dəyərlər gözəllik adlanan ali estetik kateqoriyanın gerçəkləşməsinə qulluq edir. Onun poeziyasında gözəllik geniş estetik kontekstlərə malikdir. Bu poeziyadakı gözəllik, təbii ki, ilk öncə fikrin və sənətin gözəlliyinin vəhdətidir, yəni

---

[10] Babayev Y., Allahmanov M. Miskin Vəli // «Mədəni-maarif işi» jur., 1991, №3-4, s. 17

[11] Tapdıq İ. Minnətdaram sözə qiymət verənə / «Sovet kəndi» qəz., 15 yanvar, 1987

forma və məzmun harmoniyasıdır. Bu harmonik ifadə estetik idealın təcəssümünə xidmət edir. Təbii ki, bu zaman, məhz sənətin yaranmasında ruh iştirak edir.

Azərbaycan aşıq sənətinin XX əsrdəki mərhələsi də özünə qədərki zəngin ənənəyə əsaslanaraq yeni-yeni orijinallıqların yaranması baxımından diqqətəlayiqdir. Bu mərhələnin ağırlığını öz üzərinə götürən bir çox sənətkarlar vardır ki, onların da adı Azərbaycan aşıq sənətinin korifeyləri sırasındadır. Miskinli Vəli məhz belə sənətkarlardandır.

İkinci fəslin ikinci yarımfəsli «Sənət və poeziya» adlanır. Burada göstərilir ki, Miskinli Vəlinin yaradıcılığından çıxış etdiyimiz zaman ilk öncə, onun sənət şəcərəsi, fəaliyyət göstərdiyi mühit və yaradıcılıq irsini dəyərləndiririk. Aşığın yaşadığı coğrafiya Azərbaycanın qərb bölgəsidir, Gədəbəy rayonudur. Bu ərazinin bir tərəfi Şınıx və Göyçə, bir tərəfi də Tovuz və Şəmkirdir. Aşıq mühiti baxımından burada dominant Göyçədir. Miskinli Vəli Göyçədə, Şınıxda və Gədəbəydə fəaliyyət göstərən ustad aşıqların yetirməsidir. Bu mənada onun ustadı həmin ərazinin aşıq mühitidir. Çünki aşıqlıq ənənəsində bu qanunauyğunluq da vardır. Aşığı həm ustad, həm də mühit yetişidirə bilər. Aşıq mühiti avtonom folklor hadisəsi kimi belə bir xüsusiyyətə malikdir.

Miskinli Vəlinin sənətkar statusunu müəyyənləşdirmək üçün əsas mənbələrdən biri, əlbəttə ki, onun öz yaradıcılığıdır. Məlumdur ki, Miskinli Vəli həm saz musiqisini, ifaçılıq sənətini və klassik aşıq poeziyasının nümunələrini (şeir və dastanları) mükəmməl öyrənmiş və özü də zəngin şeir yaradıcılığına malik olmuşdur. Bu xüsusiyyətlər onu ifaçı və yaradıcı aşıq kimi səciyyələndirməyə imkan verir.

Şeirlər üzərində apardığımız müşahidələrdən aydın olur ki, Miskinli Vəli özünü aşağıdakı ad, titul, təxəllüs və epitetlərlə təqdim edir: 1. Vəli; 2. Aşıq Vəli; 3. Miskin Vəli; 4. Yazıq Vəli; 5. Miskinli Vəli; 6. Miskinli Aşıq Vəli; 7. Miskinli şair Vəli; 8. Miskin muzdur Vəli.

Bu adlarda aşığın həyatının, fəaliyyətinin və sənətinin müəyyən izləri vardır. Məsələn, "muzdur Vəli" onun gənclik illərinin çətin keçdiyini və bir müddət muzdurluq edərək güzəranını təmin etdiyini təsdiqləyir. Bununla yanaşı, Vəli, Aşıq Vəli və ya şair Vəli ad-titulları isə onun sənətdəki mövqeyini göstərir.

Miskinli dərəsi və Miskinli kəndləri Miskinli ocağı ilə bu və ya digər şəkildə əlaqəlidir. Bunlardan bəzisi birbaşa Miskinli soyuna bağlıdırlar,

bəzisi onun əqrabalarıdır, bəzisi onun mürid və dərvişlərinin adı ilə bağlıdır, bəzisi də Miskinli təkkələrinin qurulduğu yerləri bildirməkdədir.

Buradan görünür ki, "Miskinli" ocağının təsirləri və təsəvvüf şeirindəki Miskin təxəllüsü Qazax-Borçalı bölğəsində də geniş yayılmışdır. Əlbəttə, bu təxəllüsün işlənməsi mütləq şəkildə təsəvvüf ənənəsi ilə əlaqəlidir. Bu əlaqənin birbaşa və ya dolayı yolla olmasını yuxarıda göstərmişik.

Tədqiqatımızın mövzusu olan Aşıq Vəli də özünü Miskin adlandırmışdır. "Qaldı" rədifli gəraylısında belə deyir:

Özüm Miskin, adım Vəli,
Həqiqətə dedim bəli,
Dilimin gövhəri, ləli,
Qaldı yadigarım oldu[12].

Qara Namazov sənətkarın miskinli soyuna bağlılığını belə izah edir: «Deyilənlərə görə Miskinli kəndi Miskin Abdalın və Miskin nəslinin adı ilə bağlıdır. Şair Vəli də bu nəsildəndir. Görünür Miskinlilərin sənət məbədi nəsil-nəsil neçə sənətkar yetirmişdir»[13].

Tədqiqat göstərir ki, Miskinli Vəli istedadlı şairdir, yüksək təbli aşıqdır, təsəsvvüf ənənələrinə sıx şəkildə bağlıdır və eyni zamanda, miskinli soyuna mənsubdur. Aşığın sənətkarlığını müəyyənləşdirən əsas fəlsəfə vəhdət fəlsəfəsidir.

İkinci fəslin üçüncü yarımfəsli «Şeirlərin forma gözəlliyi» adlanır. Burada göstərilir ki, Miskinli Vəli yaradıcılığı janr rəngarəngliyi baxımından geniş əhatə dairəsinə malikdir. Onun şeirlərində forma və məzmun vəhdəti elə sərrast qurulmuşdur ki, bunların biri o birini üstələyə bilmir, əksinə bu cəhətlər bir-birini tamamlayır. Yaradıcılığının janr çevrəsi, əhatə dairəsi baxımından bu zəngin poeziyanı klassik aşıq şeirinin davamı kimi dəyərləndirə bilərik. Bu zəngin poeziyada iki xüsusiyyət diqqəti çəkir:

1) Klassik aşıq poeziyası ənənələrinin davamı;
2) Xalq şeiri üslubunda olan müasir poeziyaya meylilik.

Uzun illər Göyçə aşıq mühitinin sənət ənənələrini yaşadan və uğurla davam etdirən ustad sənətkar bu çətin poetik ehtiyatlardan maksimum

---

[12] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 55

[13] Namazov Q. Aşıqlar. I kitab. Bakı: Səda, 2004, s. 414

dərəcədə faydalanmış, dərin məzmunlu, müxtəlif janrlı poeziya nümunələri yaratmışdır.

Miskinli Vəli yaradıcılığında rast gəldiyimiz xalq şeiri formalarından biri bayatılardır. Onun əlimizdə olan bayatıları onlarda işlənmiş cinas sözlərə görə üç qrupa bölünür:

1) "Oda" ilə işlənənlər;
2) "Daldadır" sözü ilə işlənənlər;
3) "Yaxşı" sözü ilə işlənənlər.

Miskinli Vəlinin yaradıcılığında poetik cəhətdən olduqca mükəmməl gəraylı nümunələri vardır. Məsələn, "Dağlar" şeirini aşıq aşağdakı gəraylı formasında söyləmişdir:

Aşıqların gəlir keçir,
Ələsgərin hanı dağlar,
Gələn düşür, düşən köçür,
Bil hesabı-sanı dağlar[14].

Aşığın ən çox müraciət etdiyi janrlardan biri qoşmadır. Onun qoşma-ustadnamələri poetik cəhətdən mükəmməl sənət nümunələridir. "Vədəsində" qoşması da bu silsiləyə daxildir:

Vəli Mərdin məhəbbəti az olmaz,
Çömçəyə sim bağla, yenə saz olmaz,
Zimistana yaz deməklə yaz olmaz,
Gül açmaz bülbülün lal vədəsində[15].

Miskinli Vəli aşıq şeirinin mürəkkəb janrlarından olan müxəmməs janrına da müraciət etmişdir. Müxəmməs janrı Miskinli Vəlinin yaradıcılığında bir neçə şəkli xüsusiyyətləri ilə müşahidə olunur:

De, kim qoydu bu təməli,
Kim bağladı tağı dünya?
De, kim qurdu, kim saxladı,
Kim verdi dayağı dünya?
De, kim aldı, kim gətirdi,
Bu rəngi, boyağı dünya?
De, kim çəkdi zəhmətini,
Bəzədi otağı dünya?

---

[14] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 45

[15] Yenə də orada, s. 8

Kim getdi zülmətə qarşı,
Kim qoydu mayağı dünya?

Ümumiyyətlə, Miskinli Vəli aşıq şeirinin janr-forma xüsusiyyətlərinə dərindən bələd olmuş, hər bir janrın poetik imkanlarından yetərincə istifadə etmişdir. Müraciət etdiyi janrların poetik detallarına dərindən bələd olmuş, bir ustad sənətkar kimi həmin detalları yerli-yerində işlədə bilmişdir. Ona görə də Miskinli Vəlinin poeziyası bu gün belə özünün janr-forma cazibədarlığını itirmir.

İkinci fəslin dördüncü yarımfəsli «Şeirlərin mövzu əhatəsi» adlanır. Burada göstərilir ki, Aşıq Miskinli Vəlinin yaradıcılığındakı mövzu rəngarəngliyi ənənə hadisəsidir və Azərbaycan aşıq şeirinin çoxəsrlik tarixi təcrübəsini əks etdirir.

Görkəmli folklorşünas P.Əfəndiyev aşıq poeziyasının mövzu dairəsini üç əsas istiqamətdə müəyyənləşdirir: məhəbbət lirikası, ictimai-siyasi lirika, dini mövzular[16]. Bu üç istiqamət daha kiçik tematik qruplara bölünə bilsə də, bir növ, ana xətləri təşkil edir. Bu ana xətlər hər bir xalq poeziyası nümayəndəsinin yaradıcılığında olduğu kimi, Miskinli Vəlinin də yaradıcılığının əsas mövzu istiqamətlərini təşkil edir. Lakin qeyd etmək lazımdır ki, bu istiqamətləri bir-birindən kəskin şəkildə ayırmaq, sərhədləndirmək də mümkün deyildir. Miskinli Vəlinin elə şeirləri vardır ki, onlarda məhəbbət, dini dəyərlər və ictimai-siyasi motivlər iç-içədir. Ancaq onun yaradıcılığında bu göstərilən üç mövzu istiqaməti aydın şəkildə müşahidə olunur. Özü də dini istiqamət sənətkarın yaradıcılığı üçün xarakterik olmuşdur. Məsələn, Miskinli Vəli on beş bənddən ibarət olub, başdan-başa dini-ilahi dəyərlərin tərənnümünə əhsr olunmuş «Haxnamə» şeirində deyir:

Varlığı yaradan halal mayadan,
Əlif Allahımsan, beysən il əziz.
Aləmlər oyadan, nura boyadan,
Haxsan, ədalətsən, heysən il əziz[17].

Miskinli Vəlinin yaradıcılığı Azərbaycan klassik aşıq yaradıcılığının əsas mövzularından heç vaxt ayrı düşməmişdir. Bu, onun yaradıcılığındakı dini-təsəvvüfi şeirlərdə özünü xüsusilə göstərir.

---

[16] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, s. 241-242

[17] Şeir şəxsi arxivimizdədir.

Miskinli Vəlinin mövzu baxımından tədqiqi göstərir ki, onun poeziyası yuxarıda qeyd olunan üç ana xətt (məhəbbət lirikası, ictimai-siyasi lirika, dini mövzular) daxilində nə qədər rəngarəng olsa da, aşağıdakı əsas mövzuları əhatə edir:

1. Aşıq şəxsiyyəti və sənəti haqqında;
2. Məhəbbət mövzusu;
3. İctimai məzmunlu şeirlər;
4. Qəhrəmanlıq mövzusu;
5.Təbiət gözəlliyinin tərənnümü;
6. Dini mövzulu şeirlər;

Apardığımız tədqiqat göstərmişdir ki, sənətkarın poeziyası mövzu baxımından əlvandır. O, öz dövrünə, zamanına biganə qalmamış, gördüyü hadisələri, içində yaşadığı dünyanı öz poeziyasında poetik cəhətdən əks etdirmişdir. Miskinli Vəli klassik aşıq yaradıcılığı üzərində təşəkkül tapmış sənətkar olması səbəbindən özünəqədərki ənənəni, ustadların ona verdiyi sənət və yaradıcılıq əmanətini göz bəbəyi kimi qorumuş və yaşatmışdır. O, ənənədən aldığı mövzuları tarixi yaddaş kimi saxlamış, müasir dövrün estetik normalarına uyğunlaşdırmış, bununla da aşıq yaradıcılığında yaşayan mənəvi-etik normaların, estetik dəyər və ölçülərin həyatiliyini, yaşarlığını sübut etmişdir. Miskinli Vəlinin yaradıcılığındakı bütün mövzular bir xətt boyunca birləşməklə ali estetik kateqoriya olan gözəlliyin yaradılmasına xidmət edir.

Dissertasiyanın üç yarımfəsildən ibarət olan üçüncü fəsli «Miskinli Vəli şeirlərinin sənətkarlıq xüsusiyyətləri» adlanır. Burada sənətkarın yaradıcılığı üçün əlamətdar cəhətləri təşkil edən təcnis, deyişmə, qıfılbənd və məcazyaratma sənətkarlığı kimi məsələlərdən bəhs olunmuşdur.

Üçüncü fəslin birinci yarımfəsli «Təcnis sənətkarlığı» adlanır. Burada göstərilir ki, Miskinli Vəlinin sənətkarlıq səviyyəsini göstərən, onun yaradıcılığını şeir sənətkarlığı baxımından səciyyələndirən əsas xüsusiyyətlərdən biri də cinas qafiyələrdən istifadə məharətidir. Onun poeziyasında təcnis yaradıcılığı geniş yer tutur. Məsələn, aşığın yaradıcılığında aşağıdakı ***bayatı təcnislər*** işlənmişdir:

Mən aşıq, oda məni,
Sən saldın oda məni,
Mən yarı çox sevirəm,

Qəlbində o da məni[18].

Miskinli Vəlinin yaradıcılığında ***cinas qafiyəli qoşmalar*** geniş yer tutur. Burada cinasın ən müxtəlif şəkillərini müşahidə edirik. “Yenə” rədifli qoşmasında aşıq cinas qafiyələrdən çox məharətlə istifadə etmişdir:

Baharın əyyamı gələr, başa-baş,
Al yaşıl bəzənər bu dağlar yenə.
Qaynar çiçəkləri, açar gülləri,
Bəzənər yamyaşıl bu dağlar yenə[19].

Sənətkarın yaradıcılığında ***cığalı təcnislər*** də geniş yer tutur. “Yetir” rədifli cığalı təcnisdə cinas qafiyələrin müxtəlif formalarına rast gəlirik:

Al dərsini, öyrən, sinayə söylə,
Sirrini insana sinayə söylə,
Aşıq deyir, sinayə,
Sin yazılıb sinayə,
Gələn gedir dünyadan,
Məskən salır sinayə.
Sevil, dostlarına sinayə söylə,
Düz yeri yolunu hey başa yetir[20].

El sənətkarının yaradıcılığında ***gedər-gəlməz cığalı təcnis*** nümunəsi də vardır:

Yenə dağlar geydi, yar, alı gəldim,
Dər açdım yaramı yar alı gəldim,
Mən aşığam, yaralı,
Gey qəddinə yar, alı,
Gözü yolda intizar,
Mənəm qəlbi yaralı,
Miskinli Vəliyəm, yaralı gəldim,
Kim dözər bu dərdə Minayə qədər,
Güləndə söhbəti söyləyən pəh-pəh,
Görcək aqibəti ay edə of-of[21].

Aşığın yaradıcılığında ***dodaqdəyməz təcnislər*** də diqqəti çəkir:

---

[18] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 100
[19] Yenə də orada, s. 68
[20] Yenə də orada, s. 75
[21] Yenə də orada, s. 78

İnsan gəzən qeyrətidi, arıdı,
Çiçək açdı şirə çəkən arıdı,
Nəydi axı, hər işini arıdı?
İllər keçdi qanı candan azaldı[22].

Üçüncü fəslin ikinci yarımfəsli «Deyişmə və qıfılbənd sənətkarlığı» adlanır. Burada göstərilir ki, hər hansı aşığı ustad sənətkar kimi səciyyələndirən əsas xüsusiyyətlərdən biri də onun deyişmələri və qıfılbəndləridir. İlk öncə ona görə ki, deyişmə artıq aşığın söz meydanına girməyə hazır olduğunu, özünə, sözünə, sazına və sənətinə inamlı olduğunu göstərməkdədir. Bədahətən aşıq tərzində şeir demək qabiliyyəti, yəni şairliyin də burada çox önəmi vardır. Aşıq Miskinli Vəli bu keyfiyyətlərə malik bir sənətkar olduğu üçün deyişmə meydanına girmiş və özünün söz hünərini, ustadlara xas olan bilik və bacarığını nümayiş etdirmişdir. Əlimizdə aşığın Aşıq Şəmşirlə, Şair Cavadla və Yetkin Qəşəmlə deyişmələri vardır.

Aşıq Şəmşirlə Miskin Vəlinin iki deyişməsi var. Burada «Şəmşir qardaşım» deyə səmimi müraciət aparıcı xətdə dayanır.

**Miskin Vəli:**

Dilinin əzbəri, Şəmşir qardaşım,
Güzar etsən bizə sarı yaxşıdı.
Elim həsrət çəkir səni görməyə
Məclisinin iftixarı yaxşıdı.

**Aşıq Şəmşir:**

Əzizi kuyəndan, şirin suxəndan,
Bu məktubun rəhgüzarı yaxşıdı.
Qəlbimin həbibi, dostu mehriban,
El görüşü, dost vüqarı yaxşıdı.

Miskinli Vəlinin deyişmələri mövzu rəngarəngliyi ilə də orijinaldır. Məsələn, Şair Cavadla deyişməsi tərbiyəviliyi, həyatiliyi ilə xarakterikdir.

**Şair Vəli:**

Bir bağçadan bir gül üzmə,
Bir ixtiyar olmasa.
Əndəmindən ətir verən,
Təzə nübar olmasa.
İnanmasa, sınanmasa,

[22] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 79

Bir gözələ can demə.
Bir məhəbbət, bir mərifət,
Bir etibar olmasa.

**Şair Cavad:**

Sən bir dağa seyrə çıxma,
Fəsli-bahar olmasa.
Hər insana tez can demə,
Düz etibar olmasa.
Müxənnəsə bel bağlama,
İlqarından tez dönər.
Naşı sərraf qiymət bilməz,
Əhli-xiridar olmasa.

Miskinli Vəlinin yaradıcılığında qıfılbəndlərin də özünəməxsus yeri vardır. Belə ki, bu nümunələr aşığın yaradıcılığında geniş yer tutur. Bu nümunələr təkcə deyişmələrlə işlənmir, eyni zamanda müstəqil şəkildə də söylənir və bir yaradıcılıq hadisəsi kimi gerçəkləşir. «Dolanır», «Nədi», «Ay nədən oldu», «Səslənir», «Bağlıdı», «Dördü nə», «Kim oldu» və s. kimi qıfılbəndlər mövzu rəngarəngliyi, düşüncə mükəmməlliyi ilə Miskin Vəlinin imkanlarını müəyyənləşdirir.

Üçüncü fəslin üçüncü yarımfəsli «Məcazyaratma sənətkarlığı» adlanır. Burada göstərilir ki, Miskinli Vəlinin yaradıcılığı poetik baxımdan, məcazlar sisteminin zənginliyinə görə olduqca dolğun material verir. Onun "Qocalanda" qoşmasında sənətkarcasına yaradılmış metaforaları müşahidə etmək olur:

Vaxt gəlib keçəndə quruyur tağlar,
Gözəllik donunu soyunur dağlar,
Saralır yarpaqlar, pozulur bağlar,
Saxlamır budaqlar bar qocalanda[23].

Burada "Gözəllik donunu soyunur dağlar" misrasında dağ insana bənzədilir.

Miskinli Vəlinin aşağıdakı təcnisində hərflərin metaforik imkanlarının daha geniş istifadə olunduğunu görürük. Bu da əlbəttə, ilk öncə aşığın sənətkarlığının bir göstəricisi kimi diqqəti çəkir:

Vəli, xeyrə el yerisin dal-dala,

[23] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 21

Hər sirrini hərcayidən daldala,
İki “əlif”, “lam”ı, “hey”di dal-dala
(Bu hərf birləşməsi Allah oxunur – N.H.),
Çəksin namərdlərin dağ sinəsinə[24].

El sənətkarının yaradıcılığında bir məcaz kimi bədii təvsir vasitəsi olan ***metonimiyadan*** da geniş istifadə olunmuşdur. Metaforadan fərqli olaraq metonimik köçürmə şəraitin ayrıca elementini adlandırmağa xidmət etmir, şəraitin ifadə üsuluna da aid ola bilir. Adlandırmada səbəbin nəticə, hərəkətin alətlə, yaxud hərəkətin nəticə ilə əvəz edilməsi müşahidə olunur[25].

Şeirlərdə şəxsləndirmə, təbiət obyektlərini canlı varlıq kimi qəbul etmək, ağaca, dağa, çaya, ormana və s. böyük məhəbbət və ehtiram vardır. Bu məhəbbət və ehtiram yurda, vətənə, onun hər bir obyektinə sevginin, bağlılığın rəmzidir.

Sevgi, məhəbbətdi Vaqifın sözü,
Bəşəryyət aləmi belədir düzü.
Həvvanı çox sevir Adəmin özü,
Mərifəti, yol, ərkanı bilginən.

Bu bənddə “Vaqifin sözü” Molla Pənah Vaqifin şeirləri mənasında işlənmişdir.

Miskinli Vəli poeziyası bir məcaz kimi bədii təsvir vasitəsi olan ***bədii təyin – epitetlərlə*** zəngindir:

Ay nazənin, ala gözün sürməsi,
Qaşların tərzində yay nədən oldu?
Aləmə xoş gələn nuru, şöləsi,
Gözəllik köksünə pay nədən oldu?[26].

Ümumuiyyətlə, Miskinli Aşıq Miskinli Vəlinin yaradıcılığında məcazın aşıq yaradıcılığı üçün xarakterik olan bütün növlərindən yaradıcı şəkildə istifadə olunmuşdur.

Dissertasiyanın «**Nəticə**»sində əldə olunmuş elmi qənaətlər ümumiləşdirilmiş və aşağıdakı nəticələr çıxarılmışdır:

---

[24] Yenə də orada, s. 72

[25] Qak V.Q. Sopostovitelğnaə leksikoloqiə. Moskva: Mejdunarodnıe otnoşeniə, 1977, s. 123

[26] İki ustad. Miskin Vəli, Növrəs İman / Toplayıb tərtib edənləri: Babayev Y., Sadıq İ. Bakı: Azərnəşr, 1996, s. 22

1. Miskinli Vəlinin sənətkar kimi yetişməsində mənsub olduğu mühitin müstəsna rolu olmuşdur. Azərbaycan aşıq sənətinin beşiyi olan Göyçə mühiti Miskinli Vəlinin də sənətkar kimi formalaşmasının əsasını təşkil etmişdir. Miskinli Vəli Göyçə aşıq mühitinin nümayəndəsi kimi, mühitin təkcə aşıq sənəti ənənələrinin daşıyıcısı olmamışdır.

2. Miskinli Vəli poeziyası mövzu, janr, bədii məna sistemi baxımından çox zəngin hadisədir. Onun şeirlərinin mövzu əhatəsi dini-ruhani, ictimai-siyasi, məhəbbət və s. mövzular baxımından təhlilə cəlb edilmişdir. Müxtəlif istiqamətləri əhatə edən təhlillər nəticəsində aşkarlanmışdır ki, Miskinli Vəli müasir aşıq poeziyasında klassik poetik ənənələrin görkəmli davamçısı, yaşadıcısı və yaradıcısıdır. Miskinli Vəlinin poeziyasında mövzu baxımından klassik ənənələrlə müasirlik birləşir və yaranışından həyat gözəlliklərinin tərənnümçüsü olan aşıq sənəti onun yaradıcılığının simasında öz tarixi-estetik vəzifəsini nikbin bir şəkildə davam etdirir.

3. Miskinli Vəlinin poetik yaradıcılığı aşıq poeziyası ənənələrinin təkcə yüksək səviyyədə davamı ilə məhdudlanmayıb, eyni zamanda, orijinal yaradıcılıq hadisəsidir. O, Azərbaycan aşıq poeziyasının mövzu dairəsinin bütün mütərəqqi ənənələrini davam etdirməklə bərabər, onu orijinal sənətkar duyumu və istedadının məhsulu olan şeir inciləri ilə zənginləşdirmişdir. Bu mənada, tədqiqat Miskinli Vəli poeziyasının xüsusilə Göyçə aşıq mühitində, o cümlədən, el arasında məşhurluğunun səbəblərinin əsl mahiyyətini aşkarlamışdır.

4. Miskinli Vəli poeziyasının janr rəngarəngliyinin öyrənilməsi göstərdi ki, onun yaradıcılığı janr baxımından da çox zəngin hadisədir. O, aşıq yaradıcılığının bütün janrlarında şeir qoşmuş və bununla həm aşıq poeziyasını zənginləşdirmiş, həm də özünün şairlik istedadını, söz demək qüdrətini bu janrlar vasitəsi ilə gerçəkləşdirmişdir.

5. Miskinli Vəli poeziyasının yüksək bədii estetizminin əsasında, təbii ki, yuxarıda sadalanan iki amillə yanaşı, onun poetik istedadı dayanır. Yaradıcılığının bədii mahiyyətinin tədqiqatda geniş şəkildə təhlili göstərir ki, onun poeziyasının məşhurlaşması, müasir aşıq poeziyasının qabaqcıl hadisəsinə çevrilməsi Aşıq Vəlinin ənənə ilə fərdi poetik istedadının nikbin vəhdətinin nəticəsi kimi meydana gəlmişdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Miskinli Vəli: şəxsiyyəti və sənəti // Elmi Axtarışlar, №2, Bakı: Nurlan, 2009, səh.166-169
2. Miskinli Vəli sənət yolu və yaradıcılıq irsi //Elmi Axtarışlar, №6, Bakı: Nurlan, 2009, səh.175-178
3. Miskinli Vəli irsinin tədqiqinə dair //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, №32, Bakı: Nurlan, 2010, səh.53-62
4. Miskinli Vəlinin şeirlərinin poetik xüsusiyyətləri //Dünyaya baxış, №1, Bakı, Diplomat, 2010, səh.130-142
5. Miskinli Velinin atışmaları ve muammaları// Motif Akademi Halkbilimi dergisi, №2, İstanbul, Nesil Matbaacılık Yayıncılık Sanayi və Ticaret AŞ..2011, səh.74-81
6. Aşıq Miskinli Vəlinin yaradıcılığında dini-mənəvi dəyərlər// Filologiya Məsələləri, №2, Bakı, Elm və təhsil, 2012, səh.496-503
7. Aşıq Miskinli Vəlinin yaradıcılığının tematik analizi // Filologiya Məsələləri, №3, Bakı, Elm və təhsil, 2012, səh.699-705
8. Aşıq Miskinli Vəlinin məcazyaratma sənətkarlığı // Azərbaycan Şifahi xalq ədəbiyyatına dair tədqiqlər, №37, Bakı, Elm və təhsil, 2012, səh.117-129
9. Aşıq Miskinli Vəlinin "Bilginən" şeirində sənətkar və mühit münasibətləri// Azərbaycan Şifahi xalq ədəbiyyatına dair tədqiqlər, №39, Bakı, Elm və təhsil, 2012, səh.119-132
10. Религиозно-мистическая тематика в творчестве Азербайджанского ашуга Мискинли Вели // Материалы научно-теоретической конференции «Современные тренды языкознания и тюркский мир». Казахский Национальный Университет им. Аль-Фараби, Алматы, 25 апреля 2013, с. 223-227
11. Воспевание религиозно-моральных ценностей в творчестве Ашуга Мискинли Вели // Ученые записки Таврического Национального Университета им.Вернадского. Серия филология, т.1 (1), 2013, 0,5 п.л.

*Nigar Huseynova Nazim*

# People's poet Miskinli Vali's poetic heritage

## Summary

The thesis consists of introduction, three chapters, outcome and bibliography.

The "Introduction" describes the importance of the subject matter as well as provides information with respect to the objective and subject, goal and duties, scientific innovations, theoretical-methodological grounds, theoretic and practical importance, approbation and structure of the study.

The first chapter of the Thesis is called "The Life, Environment and Creative Way of Miskinli Vali". The first subchapter of this chapter studies the master's life and course of mastership, the second subchapter investigates reflection of the creativity way and poetic heritage of the master in existing researches and the third subchapter studies creativity relations of Miskinli Vali with the environment he had belonged.

The second chapter of the study is called "Conceptual- Aesthetical Sources, Artistic Content and Characteristic Forms of Miskinli Vali's poetry". The first subchapter of this chapter studies conceptual-aesthetical source of the master's creativity, the second subchapter investigates craft and poetry relations based on Miskinli Vali's creativity while the third subchapter learns the beauty of form of the poems and the fourth subchapter subject coverage of the poems.

The third chapter of the study is called "Mastery Characteristics of Miskinli Vali's Poems". The first subchapter of this chapter studies mastership of "tajnis" making of Miskinli Vali, the second subchapter investigates "deyishma" (competition between minstrels) and "qifilband" while third subchapter looks into allegory mastership.

The "Outcome" summarizes the findings of the Thesis and defines the future directions of research of the subject matter.

***Нигяр Гусейнова Назим Гызы***

# Поэтическое наследие народного поэта Мискинли Вели

## Резюме

Диссертация состоит из Вступления, 3 частей, Заключения и перечня литературы.

Во «Вступлении» представлены актуальность темы, объект и практическое значение, цели и положения, научная новизна, теоретико-методологические основы, теоретическая и практическая значимость работы, апробация и структура исследования.

Первая часть диссертации называется «Жизнь, окружение и творческий путь Мискинли Вели». В I главе этой части исследуются жизнь и профессиональный путь мастера, во II главе – отражение творческого пути и поэтического наследия в соответствующих исследованиях, в III главе – творческие отношения Мискинли Вели как мастера со средой, к которой он принадлежал.

Вторая часть исследования называется «Идейно-эстетические источники поэзии Мискинли Вели, художественное содержание и особенности формы». В I главе этой части изучаются идейно-эстетические источники творчества мастера, во II главе – отношения «профессии и поэзии» на основе творчества Вели Мискинли, в III главе – красота формы стихотворений, в IV главе – тематический круг стихов.

Третья часть работы называется «Особенности профессионализма в стихотворениях Мискинли Вели». В I главе этой части исследуется мастерство создания теджнисов (особого вида стихов), во II главе – мастерство деишме (особая форма стихотворного диалога) и гыфылбенда (куплеты-загадки), в III главе – мастерство создания иносказания (метафор).

В части «Заключение» представлены полученные результаты и последующие исследовательские направления темы.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

*На правах рукописи*

**НИГЯР НАЗИМ гызы ГУСЕЙНОВА**

# ПОЭТИЧЕСКОЕ НАСЛЕДИЕ НАРОДНОГО ПОЭТА МИСКИНЛИ ВЕЛИ

**5719.01 – Фольклористика**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Б А К У – 2013**